*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 209-214* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.209*

# Yazılı ədəbiyyat və atalar sözləri

**Sevinc Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail: sevinc.k.aliyeva@gmail.com

**Annotasiya.** Məqalədə yazılı ədəbiyyatda özünə yer almış atalar sözlərinin məzmunu, ideyası nümunələr əsasında təhlil edilir. Eyni zamanda folklorizmlərin Azərbaycan yazılı ədəbiyyatında təzahür edən, çox yayılan formalarına da aydınlıq gətirilir. Yazılı ədəbiyyat təkcə folklorizmləri, folklor motivlərini yaşatmır, həm də milli poetik fəlsəfi ənənələrin davamçısı kimi çıxış edir. Azərbaycan yazılı ədəbiyyatı milli koloritin böyük daşıyıcısı olaraq görünür. Çünki Azərbaycan ədibləri hər zaman folklora ardıcıl şəkildə müraciət etmələri ilə yadda qalıb. Ona görə də məqalədə Azərbaycan ədəbiyyatında folklor dəyərləri ilə yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsinə də diqqət yetirilir. Məqalədə qarşıya qoyduğumuz əsas məqsəd Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığında folklor qaynaqlarına istinadın əhəmiyyətini müəyyənləşdirmək, folklor motivlərindən bəhrələnmənin forma və xüsusiyyətlərini təhlil etməkdir. Bu, bir həqiqətdir ki, folklorsuz hər hansı bir xalqın yazılı ədəbiyyatı quru və rəngsiz olardı. Əsasən əxlaq və mənəviyyatın, sağlam əqidənin formalaşmasına yönəldilmiş folklor nümunələri müxtəlif dövrlərdə yaşamış şair və yazıçılarımızın yaradıcılığında işlənə-işlənə bu günümüzə gəlib çıxmışdır. Hər bir millətin varlığının əsas göstəricisi onun folklorudur. Xalqın təfəkkürü və intellektual bacarığı ən mükəmməl halda folklorun daxili qatında, məntiqində qorunub saxlanılır. Hər bir folklor janrı dövrün məhsuludur. Atalar sözləri də məhz belə ədəbi janrlardan biridir. Yazılı ədəbiyyat isə özündə saysız-hesabsız folklor nümunələrini yaşadır, zamandan zamana gətirir, xalqın sevincini, kədərini, arzu və istəklərini əks etdirən böyük bir aləm olmaqla, özünəlayiq deyimləri seçir, qaydaya salır, nəsildən nəslə ötürür. Mənası xalq mənəviyyatı, xalq müdrikliyi kimi başa düşülən atalar sözlərinin dərin kökləri var.
**Açar sözlər:** folklor, yazılı ədəbiyyat, aforizm, atalar sözləri, dastan

**Məqalə tarixçəsi:** göndərilib – 21.05.2025; qəbul edilib – 05.06.2025

# Written literature and proverbs

**Sevinj Aliyeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Folklore of ANAS
E-mail: sevinc.k.aliyeva@gmail.com

**Abstract.** In the article the content and idea of proverbs in the written literature on the basis of examples are analyzed. At the same time, the most common forms of folklore in Azerbaijani written literature are clarified. Written literature not only keeps folklore and folklore motives alive, but also acts as a follower of national poetic and philosophical traditions. Azerbaijani written literature is seen as a great carrier of national color. Because Azerbaijani writers have always been remembered for their consistent appeal to folklore. Therefore, the article also focuses on the relationship between folklore values and written literature in Azerbaijani literature. The main purpose of the article is to determine the importance of reference to folklore sources in the works of prominent representatives of Azerbaijani classical literature, to analyze the forms and features of the use of folklore motifs. It is a fact that without folklore, the written literature of any nation would be

simple and colorless. Examples of folklore, mainly aimed at the formation of morality and spirituality have come to the present day in the works of our poets and writers who lived in different periods. The main indicator of the existence of any nation is its folklore. The thinking and intellectual abilities of the people are perfectly preserved in the inner layer and logic of folklore. Every genre of folklore is a product of the time. Proverbs are one of such literary genres. Written literature, on the other hand, contains countless examples of folklore, brings them from time to time, being a great world that reflects the joys, sorrows, desires and aspirations of the people chooses, organizes and transmits worthy sayings from generation to generation. Proverbs, which are understood as folk morality, folk wisdom, have deep roots.
**Keywords:** folklore, written literature, aphorism, proverbs, epics

**Article history:** received – 21.05.2025; accepted − 05.06.2025

## Giriş / *Introduction*

Şifahi xalq ədəbiyyatının incəliklərinə, milli-mənəvi varlığımızın dərin qatlarına bələd olan şair və yazıçılarımız müraciət etdikləri mövzuların uğurlu bədii həllinə o zaman müvəffəq ola bilirlər ki, yazdıqları əsərlərin dil və ruhunda sənətkarlıq keyfiyyətləri ilə bərabər, folklor qaynaqları da yer almış olsun. Bu baxımdan folklor qaynaqları bu və ya digər şəkildə həm klassik, həm də müasir ədəbiyyatımızın görkəmli nümayəndələrinin bədii yaradıcılığında özünü göstərir. Bununla bərabər, şairlərin yaradıcılıqlarında atalar sözlərinə müraciətin ədəbi-tarixi zərurətini aydınlaşdırmaq, bədii əsərlərinin dil, üslub və məzmununda inikas edən ədəbi-estetik özünəməxsusluğu dəyərləndirmək "folklor və yazıçı" probleminin öyrənilməsi baxımından olduqca maraqlıdır. Akademik M.Kazımoğlunun qeyd etdiyi kimi, yazılı ədəbiyyat və folklor problemi ilk baxışdan asan mövzu kimi görünsə də, əslində yaradıcılığın çox mürəkkəb münasibətlər kompleksini, bədii özünüifadənin müxtəlif təsvir dillərini, ifadə kodlarını nəzərdə tutur [6, s.99].

## Əsas hissə / *Main part*

**Yazılı ədəbiyyatın folklor qaynaqları.** Atalar sözləri özünün daxili rəngarəngliyi və dərin məzmunu ilə səciyyələnir. Məzmunlu, mənalı və səlis səslənməsi ilə fərqlənən bu söz inciləri həyat hadisələrinin düzgün təsviri, müqayisələrin sərrastlığı, tənqid və yumorla vurulan zərbələrin hədəfə düzgün dəyməsi xalqın iti müşahidəsinin, müdrik təfəkkürünün məhsuludur. Azərbaycan folklorunda xüsusi yer tutan atalar sözlərinə xalqımızın güclü bağlılığı vardır. Bu bağlılıq əsasən yaşlı nəsildən uşaqlara və gənclərə keçmişdir. AMEA-nın müxbir üzvü K.Əliyevin fikirlərinə istinad edərək deyə bilərik ki, folklorla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsi çox qədimlərə söykənməklə bərabər, həm də zərurətdən doğmuşdur. Yazılı ədəbiyyat folklorun min illər boyu işləyib hazırladığı formaları, süjetləri, təsvir vasitələrini, poetik fiqurları sadəcə almaqla kifayətlənməmiş, eyni zamanda şifahi xalq ədəbiyyatının poetikasını yaradıcı şəkildə mənimsəmişdir. İnamla demək mümkündür ki, yazının icadından bu günə qədər şifahi xalq ədəbiyyatı yazılı ədəbiyyata böyük təsir göstərməklə hər zaman yazılı ədəbiyyatımızın birinci dərəcəli qaynağı olmuşdur. Məhz bu səbəbdən hər bir xalqın tarixi keçmişi və gələcəyi onun yaratdığı söz xəzinəsinin zənginliyinə və gücünə borcludur [3, s.70]. Folklorun digər janrları kimi, atalar sözləri də istisnasız olaraq, yazılı ədəbiyyatın qaynağı kimi bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. X.Şirvani, N.Gəncəvidən başlamış M.Füzuli, M.P.Vaqif, Q.Zakir, A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, M.T.Sidqi, M.Ə.Sabir, A.Səhhət, N.Vəzirov, H.Cavid, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Cavad, C.Cabbarlı, S.Vurğun, B.Vahabzadə, M.Araz, Ə.Kərim, Qabil və digər adını qeyd etmədiyimiz sənətkarlarımızın əsərlərindən folklorumuzun ətri duyulur. Çünki onların yaradıcılığında öz əksini tapmış xalq ifadələri, xüsusən atalar sözləri istək və

arzularımızın, düşüncələrimizin əks-sədası kimi səslənərək özümüzü özümüzə göstərir, keçmişimizi bizə tanıdır. Atalar sözləri bu sənətkarların yaradıcılığına nüfuz etmiş, əsərlərinin hərarətini artırmışdır. Bilirik ki, onlar atalar sözlərindən hazır ədəbi material kimi əsərlərində istifadə etmişlər. Amma dəyərli sənətkarların poeziyasında bir sətir də ürəksiz yazılmadığına görə, istifadə olunan atalar sözləri də ürəkdən gəlmiş, səmimi səslənmişdir. Onu da qeyd etməliyik ki, yaradıcılıqları boyu şifahi xalq ədəbiyyatı nümunələrinə, əsasən xalq ifadələrinə – andlara, dualara, alqış və qarğışlara, atalar sözləri və zərbi-məsəllərə xüsusi diqqət yetirmiş sənətkarlarımızın əsərlərində hər şeydən əvvəl insan var, insan taleyi var, dünyaya, bəşəriyyətə, tarixə fəlsəfi baxış var. Məhz buna görə bu sənətkarların yazılı ədəbiyyat tariximizdə olan yüksək mövqeyini onların folklora bağlılıqları ilə izah edə bilərik. Bütün varlıqları ilə xalqına bağlı olan, qəlbləri xalq və vətən eşqi ilə alovlanan bu sənətkarlar xalq üslubunda yazıb-yaratdı, düşüncələrini öz xalqına xalq ifadələri ilə söylədi və məhz bu yolla öz poeziyasını real həyatla bağladı. Belə ki, bu sənətkarlar yaradıcılıqlarında ümumxalq təfəkkürünün məhsulu olan idiomlara, ibarə və aforizmlərə, atalar sözü və zərbi-məsəllərə, hətta alqış və qarğışlara da geniş yer verdilər. İnsanlar arasında yaranmış ictimai problemlər və bu problemlərin gərginliyini aradan qaldırmaq üçün yenə folklor nümunələri köməyə gəlir. “Folkora istinadən hər hansı bir xalqın yalnız tarixi keçmişi deyil, onun psixologiyasını, adət-ənənəsini, həyata və dünyaya münasibətini öyrənmək də o qədər çətinlik törətmir. Folklorda insan ömrünün bütün məzmunu öz ifadəsini tapır” – söyləyən AMEA-nın müxbir üzvü K.Əliyev əlbəttə ki, haqlıdır [2, s.257]. Çünki folklor insana real həyat hadisələrinə düzgün münasibət bəsləməyi, yaxşını pisdən seçməyi öyrətməkdə ən kamil vasitədir. M.P.Vaqifin də aşağıdakı qəzəlində istifadə etdiyi atalar sözü bu fikirlərin bariz nümunəsini əks etdirir: Çün “uman yerdən küsərlər” bir məsəldir xalq ara, Küsdüyüm bica deyildir, aşinadən küsmüşəm [12, s.154]

Və ya Vidadi ilə deyişməsində Vaqifin söylədiyi atalar sözü də insanların bir-birinə olan qarşılıqlı inamını ifadə edir:

*Əqlin olsun, on iki imama inan,*
*Fayda verməz sonra olmaq peşiman,*
*Yəqin bil ki, qurulacaqdır mizan,*
*Əməlin qarşında durar, ağlarsan.* [12, s.228]

“Hər kəsin dünyada bir qibləsi var”, – söyləyən M.P.Vaqif bütün bu və bunun kimi nəcib keyfiyyətlərin insanlarda, xüsusən gənclərdə aşılanmasının da şifahi xalq ədəbiyyatı nümunələrinin köməyi ilə baş tutduğunu düşünürdü. M.P.Vaqif igidlik, dostluq, inam, etibar, vətənpərvərlik, xeyirxahlıq, düşmənə qarşı mübariz olmaq kimi mənəvi sifətləri də yaradıcılığında atalar sözləri ilə tərənnüm edərək həqiqi insanın yetişməsi üçün vacib şərtlər hesab edirdi. Bu deyilənləri akademik M.Kazımoğlu aşağıdakı kimi səciyyələndirərək yazır ki, folklor ayrı-ayrı janrlarda gerçəkləşən mətnlər olmaqla yanaşı, xalq düşüncəsinin və xalq həyatının bütün sahələrini əhatə edən sabit mənəvi dəyərlər sistemidir [5, s.3].Ümumi yaradıcılığında geniş yer verdiyi “Uman yerdən küsərlər”, “Fayda verməz sonra olmaq peşiman” və ya aşağıdakı şeirində öz əksini tapan “Söz danışmaq olmaz əğyar içində”, “Dost dosta gələndə yolda bənd olmaz” kimi atalar sözləri insan mənəviyyatına təsir edən, əsl dostluq nümunəsi göstərən tərbiyəvi amillərdir:

*Vaqif səni sevdi xublar içində,*
*Bir təzə qönçəsən gülzar içində,*
*Söz danışmaq olmaz əğyar içində,*
*Gəl çəkilək bir qırağa, Fatimə!...* [11, s.13]

Atalar sözləri insanlar arasınada fikir mübadiləsi və qarşılıqlı anlaşma vasitəsi olmaqla bərabər, digər müəyyənlikləri də qazanmış olur. Əl-Fərabidə oxuyuruq: “Haqqı çoxluqda axtarma.

Harada ki, çoxluq var, orada naqislik var" [12, s.287]. Atalar sözlərini xalq ruhunun, xalq etiqatlarının məhsulu hesab edən Y.V.Çəmənzəminlinin də yaradıcılığı ilə tanış olduqca görürük ki, folkloru çox sevmiş və öz əsərlərində hər zaman ondan bəhrələnmişdir. Araşdırdığımız tədqiqatlardan da məlumdur ki, xalqımızın yazılı ədəbiyyatı folkloru ilə daha çox bağlıdır. Bütün hallarda folklor mənsub olduğu millətin əsl milli sərvəti statusunu özündə cəmləşdirir, milli keyfiyyətlərin daşıyıcısına çevrilir. K.Abdullanın təbirincə desək, dastanda söz və onun gücü birinci növbədə, özünü müqəddimədə göstərir" [1, s.285]. "Qız anadan görməyincə öyüd almaz. Oğul atadan görməyincə süfrə açmaz. Oğul atanın yetirməsi, iki gözünün biridir. Ağıllı oğul olsa, ocağın közüdür. Kişi malına qıymayınca adı çıxmaz". Əxlaqi gücü böyük olan bu deyimlər bir daha göstərir ki, "Kitabi-Dədə Qorqud" dastanı da təkcə folklor nümunəsi deyil, həm də təlim-tərbiyə məktəbidir. Allaha inam, ağsaqqala hörmət, ata-ana, böyük-kiçik münasibətlərinin müqəddəsliyi, adət-ənənələrə sədaqət kimi keyfiyyətlər bu dastana xas olan keyfiyyətlərdir. İnsanlığa xeyirxah fikir, xeyir əməl bəxş edəcəyinə inanan yazıçılarımız bu folklor nümunələrindən də yazılı ədəbiyyatda istifadə edərək prof. K.Abdullanın fikrini bir daha təsdiqləyirlər. Atalar sözləri və məsəllərin yazılı ədəbiyyatın inkişafında müstəsna rolunu R.Əliyev isə bu cür ifadə etmişdir: "Atalar sözü və məsəllərin işlənmə mexanizmi, məzmunundakı məntiqilik onun hamı tərəfindən başa düşülməsində, daha çox təkrar olunmasında və qəbul edilməsində, yaddaşlardan keçərək toplum üçün işlək formaya çevrilməsində təsdiqini tapır" [4, s.107].

**Yazılı ədəbiyyatda atalar sözlərinin yeri və rolu.** Azərbaycan ədəbiyyatı o qədər əzəmətli və mənalıdır ki, zaman-zaman öz dühalarını yetişdirmişdir. "Atalar sözlərinin hər biri bir dastandır", – deyən S.Vurğun da bu kök üzərində yetişmiş, folklor havası ilə nəfəs almış, XX əsrin poeziyası zirvəsinə qalxmış sənətkarlarımızdandır. Məlumdur ki, bədii fikrin inkişafında yazıçı yaradıcılığının düzgün istiqamətdə hərəkətinə və inkişafına təsir göstərən əsas amillərdən biri ədəbiyyatşünas-tənqidçi fikri və şəxsiyyətidir [9, s.425]. Qeyd etdiyimiz kimi, Azərbaycan ədəbiyyatında N.Gəncəvidən bu günə qədər şair və yazıçılarımız bu və ya digər şəkildə atalar sözləri və məsəllərdən istifadə etmişlər. Bu istifadə iki şəkildə: ya birbaşa, ya da məzmunu saxlamaqla olmuşdur. Şübhəsiz ki, şair və yazıçılarımız bütün dövrlərdə həm məzmun, həm də anlam planında yenilənən atalar sözlərini yeni dövrdə, xüsusən də XX əsrin sonlarından etibarən şifahi xalq ədəbiyyatından aldığı ideyanı yazılı ədəbiyyatda yeni, fərqli bir formada təqdim etməyə başlamışdır. M.T.Sidqinin "Oğlum Məhəmmədəliyə nəsihət" şeirindəki düşüncələr də geniş mənada bütün gənc nəsillər üçün faydalı atalar sözlərindən ibarətdir. Bu öyüd və tövsiyələr bu gün də gənc nəslin tərbiyəsində əhəmiyyətlidir. Və yaxud "Yaxşı ad" adlı şeirində:

*Bekar arvad cavan əri qocaldar,*
*Əsl arvad çox dərdini azaldar,*
*Üç şey deyim, insan başın ucaldar,*
*Yaxşı səda, yaxşı süfrə, yaxşı ad*

– söyləyən Aşıq Hüseyn Bozalqanlı da,

*Ailə binadır, onun əzəldən,*
*Gərək düz qoyula təməl daşları* [10, s.401- 404]

– deyərək gənclərə səslənən O.Sarıvəlli də folklora bağlılığı ilə seçilən sənətkarlarımızdandır. "Atalar sözü öyüddür, bizə yüz illər, min illər deyiləcək", – söyləyən B.Vahabzadənin bu fikirləri öz dövründə olduğu kimi, bu gün də aktual olaraq qalmaqdadır. Bir məqamı da xüsusi vurğulayaq ki, B.Vahabzadə də ifadə baxımından istifadə etdiyi atalar sözlərini zənginləşdirir, həm də onlara bir canlılıq verir, yeni nəfəs gətirir. Çünki atalar sözləri şair və yazıçıların şeirlərinə hazır kütlə kimi daxil olur, bəzən onlardan əsərin adı, ya əxlaqi-nəsihətamiz nəticə, ya da ki, bir nəqarət kimi istifadə olunur. Məsələn, B.Vahabzadənin 1994-cü ilin yanvar ayında yazdığı və Vasif

Adıgözəlovun musiqi bəstələdiyi "Qisas böyütsün səni" şeirində bunun bariz nümunəsini görə bilərik [13, s.318]. AMEA-nın müxbir üzvü K.Əliyev belə yaradıcı prosesin nəzəri əsaslarına toxunaraq yazır: "Sənətkar mənsub olduğu xalqın folklor irsinə müraciət edir, xalq yaradıcılığından səmərəli şəkildə qaynaqlanır. Belə halda bir bayatı, bir atalar sözü, bir nağıl süjeti də həm təzə həyat yaşayır, həm də zənginliyini, siqlətini yenidən təsdiq edir" [8, s.267].

Yazılı ədəbiyyat nümunələri ilə ilə tanış olduqca görürük ki, folklora söykənmək, xalq ifadələrinə istinad etmək xalqımızın varlığını müəyyən edən tükənməz qüvvə mənbəyidir. Folklora müraciət edən sənətkarların əsərləri bu gün də ictimai tərbiyə vasitələri kimi gənc nəslin əxlaqına, dünyagörüşünə müsbət təsir göstərir, bədii-estetik zövq mənbəyi kimi gənclərdə yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılayır. "Hər bir xalqı yaxşı tanımaq üçün onun folkloru ilə tanış olmaq lazımdır" – söyləyən Xalq şairi H.Arif isə bu müdrik sözləri belə səciyyələndirirdi: "Hər zərbi-məsəlin öz tarixi var. Yersiz söz deməyib bizim babalar". Digər folklor nümunələri kimi, atalar sözlərinin də davamlı şəkildə toplanması, tədqiqi və təbliği işinin davam etdirilməsinə ciddi ehtiyac vardır və bu fəaliyyət mədəni irsimizin zənginləşdirilməsi baxımından çox faydalıdır.

## Nəticə / *Conclusion*

Folklorizmlər yazılı ədəbiyyatımızın məzmununa və mahiyyətinə elə dərindən hopmuşdur ki, bunu ədiblərimizin yaradıcılığında hər zaman aydın şəkildə görə bilirik. Ədiblərimizin öz əsərlərində folklor qaynaqlarına müraciət etməsi, eləcə də yazılı ədəbiyyatda atalar sözlərindən istifadə sənətkarlığı Azərbaycan ədəbiyyatının folklorla əlaqəsinin tədqiqi sahəsində yeni istiqamət açmaqla bərabər, yeni tədqiqat üslubunun əsasını qoyur. Bu fikrimiz aparılmış tədqiqatlarla da təsdiq olunur. Belə ki, Prof. C. Qasımov qeyd edir ki, folklor yeni quruluşun tələblərinə cavab verən, zəhmətkeş xalqın arzu və mənafelərini ifadə edən əsl xalq ədəbiyyatıdır [8, s.267]. Məlumdur ki, məqaləmiz folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsinin araşdırılmasına həsr edilmişdir. Atalar sözlərindən istifadənin yeni tarixi şəraitə uyğun şəkildə yüksəlişi X.Şirvani, N.Gəncəvidən başlamış M.Füzuli, M.P.Vaqif, Q.Zakir, A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, M.T.Sidqi, M.Ə.Sabir, A.Səhhət, N.Vəzirov, H.Cavid, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Cavad, C.Cabbarlı, S.Vurğun, B.Vahabzadə, M.Araz, Ə.Kərim, Qabil və onlar kimi ədəbiyyatımızın digər dəyərli sənətkarlarının əsərlərində özünü büruzə vermişdir. Sənətkarların yaradıcılığında özünü göstərən etnoloji, ənənəvi və intellektual folklorizm nümunələrinin açıqlanması, onların ayrı-ayrı xüsusiyyətlərinin aşkarlanması baxımından əhəmiyyətli tədqiqat işi kimi məqaləmiz diqqəti cəlb edir. Apardığımız tədqiqat işindən də aydın olur ki, folklorumuzun digər janrları ilə bərabər, atalar sözləri də yazılı ədəbiyyatda folklorizmlərin formalaşmasında əhəmiyyətli dərəcədə rol oynamışdır.

## Ədəbiyyat / *References*


1. Abdulla K. Kitabi-Dədə Qorqud poetikasına giriş. – Bakı: RS Poliqrafiya, 2017, 320 s.
2. Əliyev K. Çağdaş folklorşünaslığın problemləri. – Bakı: Elm və təhsil, 2017, 364 s.
3. Əliyev K. Ədəbiyyatşünaslıq, ədəbi tənqid. 10 cilddə, V c. – Bakı: Elm və təhsil, 2018, 556 s.
4. Əliyev R. Azərbaycan şifahi xalq ədədbiyyatı: müasir aktual problemlər. – Bakı: ADPU, 2014, 350 s.
5. Kazımoğlu M. Folklor və dövlətçilik düşüncəsi. I kitab. – Bakı: Elm və təhsil, 2016, 308 s.
6. Kazımoğlu M. Yol və söz. – Bakı: Elm və təhsil, 2015, 236 s.
7. Qafarlı R. Mifologiya. 6 cilddə, I c. – Bakı: Elm və təhsil, 2015, 454 s.
8. Qasımov C. Birinci türkoloji qurultay: şahidlər və şəhidlər. – Bakı: Gənclik, 2019, 736 s.
9. Qasımov C. Siyasi repressiya: həyatda və ədəbiyyatda. – Bakı: Elm və təhsil, 2020, 508 s.
10. Quliyev S. Ailə pedaqogikasının mühüm problemləri. – Bakı: Nurlan, 2005, 416 s.
11. M.P.Vaqif. Əsərləri. – Bakı: Azərnəşr, 1937, 204 s.

12. M.P.Vaqif. Seçilmiş əsərləri. Tərtib edəni və ön sözün müəllifi: Həmid Araslı. – Bakı: Şərq-Qərb, 264 s.
13. Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə, I cild [şeirlər]. Bakı: Öndər, 328 s.

## Письменная литература и пословицы

**Севиндж Алиева**
Доктор философии по филологии, доцент
Институт фольклора НАНА
E-mail: sevinc.k.aliyeva@gmail.com

**Резюме.** Пословицы выразительная форма чувства народа, его моральность, горе и радость, самое главное его историческая память. Из-за того, что пословицы выражают жизнь нашего народа, его традиции с реальными качествами, народ всегда сохраняет и любит говорить наизусть пословицы. Письменная литература не только остается приверженную форме своего творчества, но и выступает как последовательный продолжатель традиций национальной поэтической философии. Письменная литература получает свою поэтическую силу от народного творчества, искусства ашугов, их волшебной мудрости. Эта статья путем сравнительного анализа затрагивает все эти вопросы. Наш народ сочинял пословицы применительно с местными традициями, и этим увенчал свою историю, литературу. Пословицы занимают интересное место среди жанров эпического вида. Пословицы состоят из мудрых помыслов народа. Ввиду своей глубокомысленной, наставленческой сущности пословицы и поговорки также широко используются и в письменной литературе.
**Ключевые слова:** фольклор, письменная литература, пословицы, пословицы, эпос